# RÜBƏND

## Şəhla Nihan

esselər və
hekayələr



alatoran

# Nihan Şəhla
# Rübənd

*http://www.litres.ru/pages/biblio_book/?art=68364232*
*Rübənd:*

## Аннотация

Sərbəst kompozisiya. Mənim üçün cilalı almazdı bunlar.

Olubmu ki, nəyəsə böyük tələbat duymusuz, həyata gətirmisiz onu, reallaşdırıb yaşatmısız.., sözlərmi, musiqimi, rənglərmi dünyasının sakininə çevirmisiz və o da öz müqabilində sizi, öz yaradanını ovudub.. Amma sonra arxanıza baxmadan qaçmaq istəmisiz ondan.., həm sevinciniz, həm kədəriniz olub., həm udub, həm uduzduğunuz bir nəsnə. Mənəvi qida və uçurum. Tuluz-Lotrek üçün Mulen Ruj nə idisə, sizin üçün də bu doğurduğunuz eyni bir şey.

# Содержание

MULEN RUJ 4
YUXULARIMI KİMƏ DANIŞIM? 4
BİR AZ ONDANAM, BİR AZ BUNDAN 9
YAĞIŞ 12
QADIN NALƏSİ 19
DƏNİZ, MƏNİ QƏBUL EDƏRSƏNMİ, DƏNİZ? 21
GEDİRƏM 23
İSTƏYİRƏM… 26
Конец ознакомительного фрагмента. 29

# Şəhla Nihan Rübənd

# MULEN RUJ

## YUXULARIMI KİMƏ DANIŞIM?

O yuxularımı ki, orda küləklər yoxdur. Qum dənəcikləri arın-arxayın ucsuz-bucaqsız səhraların köksünü yandırmaq-da davam edir......

Orda ki, nəhayətsiz ümmanlarım var, suyu bir ovuca sığar.

O yuxularımı ki, pərdələri asılıb, amma pəncərələri yoxdur.

Orda ki, məhəbbət nifrətə, nifrət məhəbbətə qarışıb və hamısı yumruq boyda ürəyin bir zərrəsində qərar tutub.

O yuxularımı ki, orda pillələr səni həm qaldırır, həm endirir. Özü!

Orda ki, ağaclar əvvəlcə solur, sonra başlayır bar verməyə. Və 10 ağacın barı bir real alçanın yerini vermir.

Orda ki, alqış nifrinə, nifrin alqışa qalib gəlir və mən bilmirəm onların hansı özümün özüm üçün uydurduğum təkamül təliminə daha yatırımlıdır.

O yuxularımı ki, orda əjdahalar gözəlləri ovlayıb öz qəsrlərində saçlarından asıb. Gözəllər gözləyir, gözləyir, igid

şahzadələrdən isə səs-soraq yox......

Orda ki, bu igid cəngavərlər son nəhayətdə tapılıb gəlir və Misri qılıncı çıxarıb əjdahanın boynunu vurmaq istəyəndə, məlum olur ki,....böyründən asılan tək bircə qınmış, qılınc özü yaddan çıxıb evdə qalıb.

Və bu yerdə mən ayılıram.......Ayılıb ətrafıma boylanıram. Reallığın mənə bir şey vəd etmədiyini görüncə yenə gözlərimi bərk-bərk yumub yuxuya gedirəm...., saçından asılmış gözəllərin yanına qayıdıram, yuxumun davamını görmək üçün.

O yuxularımı ki, saniyə saniyə ilə başbabaş gəlir. Reallıqda elə deyil amma. Reallıqda saniyəmin əyər-əskiyi var. Ya normativdən qısa (onda ki, xoşbəxtlik ilahəsi çaşıb qapımı döyür), ya da uzundur (onda ki, ayaqlarımı altıma yığıb, pəncərəaltıda otururam, qələm-kağızı götürüb özümü məşğul kimi göstərirəm. Gündüzlər bu boş məşğuliyyət o qədər də canyaxıcı görünmür. Pəncərə önündə daim mənzərələr bir-birini əvəz edir, insanlar qaynaşır və gözlərinə darıxmaq imkanı vermir. Amma gecələr......., gecələr fikrin uçur xəyallar dənizlərinə, əlvan yelkənlərin üzərinə......, miskin fəzanı baxışların eninə-uzununa şumlayır...., nə qədər Ayı bürcünü axtarmaq olar?!).

Daha xoşbəxtlik ilahəsini də otağımda qəbul etməyəcəyəm. Gəlir, mən onu içəri dəvət edirəm. Daxil olur, səssizcə dayanıb, ətrafa nəzər salır. Burda nə görürsə, dönüb nəfəslikdən qaçır. Mən isə gedəni saxlamıram adətən. Ona görə daha onu çağırmayacağam.

O yuxularımı ki, odun parçaları kimi böyür-böyürə düzüb, kəndirlə sarıyıram, Cırtdanın şələsi kimi kürəyimə alıb gedirəm. Alıram ki, bəlkə ağırlığını hiss eləyim, fiziki dünyanın ölçü vahidi ilə ona bir çəki meyarı bəxş edim və onların da reallaşmaqdan (zorən!!) qeyri bir çarəsi qalmasın və mən də onların nə vaxtsa reallaşacağına bu yolla inandırım özümü.

O yuxularımı ki, orda soyuqluğu və möhtəşəmliyi ilə canları üşüdən bir mozaik görüntü var. Və bu mozaikanin parçaları məndən xəbərsiz gəlib bir-birini tapır, bir-birinin tuşunda dayanır və mənzərəni tamamlayır. Amma gerçəkliyimin parçalarını əlimdə çıraq günün günorta vaxtı gəzirəm, gəzirəm, yenə də tapa bilmirəm. Tapa bilmirəm ki, varlığımın dekorasiyasını bitirim. Hər parçamın sorağı bir dərədən gəlir, biri arandan, biri Turandan.

O yuxularımı ki, dünyanın ən mükəmməl kaleydoskopu onlara həsəd aparardı. O qədər müxtəliflik, rəngarənglik, kolorit, zövq var ki..... Heyhat! Gözümü açan kimi bu kaleydoskopu yerə...... yox, daşlara çırpıb sındırırlar ki, qəlpəsi ələ gəlməsin.

O yuxularımı ki, orda rahiblər, rəssamlar, əlində eşq badəsi, ayağı yalın, üstü cır-cındır, bu fani dünyanı avara-sərgərdan gəzib dolaşan dərvişlər var. Dərvişlər öz eşq sərgüzəştlərini bütün çılpaqlığı ilə, utanıb-qızarmadan yerli-yataqlı rahiblərə danışır. Rahiblər rənc alıb-rəng verir bu həyasız, cılpaq sevgi hekayətlərindən. İlahiyyat ilmələri ilə toxunmuş bir həya donu geyindirir və onları əli yaratmaq üçün gicişən rəssamlara

pıçıldayırlar. Rəssamlar bu məhəbbət qarışıq ilahiyyatdan və ya ilahi məhəbbətdən cuşa gəlir, rənglərini, fırçalarını qabağına töküb yaradır. Çəkir, çəkir....... və çəkdiklərini bəyənmir. Sonra əl atıb duyğuların ilahi libasını cırır, söküb bir küncə atır, onu çılpaqlaşdırır, yenidən əsl dərviş məhəbbəti cildinə salır. Və bu məhəbbətin vəhşi gözəlliyindən, çılpaq bədənindən, ağılları aparan ədəbsiz cəsarətindən bayılmaq dərəcəsinə gələn rəssam elə bir şah əsəri yaradır ki,.......o səmavi rəngləri və onların ahəngini yer üzündə görmədim mən. O rəngləri yalnız mənim yuxularımın rəngsaz rəssamı yaradır. Bunlar kosmik koloritdir və gerçəkliyin haləti çatmaz ona bənzər nəsə yaratmağa. Gözlərimi qapayıram və yuxularımın rəngli (oxu: əlvan) rənglərinin bu dünyamıza axmasının qarşısını aliram.

Elə yuxularımı ki, onların fəzaları al qandır. Dərinləri, çökəkləri gözlərdəki sonsuzluğa meydan oxuyur. Sularındakı şəffaflığa, təmizliyə sahilindəki qamışlar bayatı deyir. Daşların hərəsi bir qaya parçası. Günəş isə hamı üçün eyni cür parlayır. Yaxını yaxındır yuxularımın, uzağı yaxından da yaxındır.

Elə yuxularımı ki, səni ora buraxmaram....

Və gəlsən, qoymaram gedəsən.

Elə yuxularımı ki, orda torpaqlar yiyəsizdir, meşələr ovçusuz. Ceyranlar tənbəl-tənbəl göy çəməndə otlayır, ağzini marçıldada-marçıldada.

Orda ki........

Nə zəhər var, nə zəhərləyən.

Nə ölən, nə öldürən.

Nə gülən, nə güldürən. Şadlığa yasdı, daima nasazdı yuxularım.

Nə cəllad var, nə məhbus.

Nə əkən var, nə biçən. Nə ölənin yerinə keçən.

Nə eniş, nə yoxuş.

Nə diyirlənən, nə diyirlədən.

Nə pay var, nə payıkəsilən.

Heç nə! Heç nə yoxdur!! Orda yalnız bir sonsuzluq var. Məchulluqdan gələn və məchulluğa gedən bir yol. Kor bir yol. Ona görə sevirəm yuxularımı. Və bir kimsənin cəsarəti deyil onları mənim əlimdən alsın!

P.S. Əgər yuxuda da mənə həqiqətin inikasını göstərəcək olsalar, niyə mən yatıram onda? Məni seçim qarşısında qoymaq istəyirlər: yuxu ya gerçəklik? Qorxmurlar ki, şələ-küləmi yığışdırıb yuxularıma köçməyə qərar verərəm?......Birdəfəlik və həmişəlik?! Mənim yuxularım həqiqətin astarıdır. (*pıçıltıyla: yuxularıma qonaq gəlsəz, sizə dağ çiçəyinə bükülmüş müşk tapıb verərəm....,onda bir də mənə reallıq təklif etməzsiz. Etməzsiz…* )

# BİR AZ ONDANAM, BİR AZ BUNDAN

Məqsədim? Məqsəd – “bir az”ları toplaya-toplaya gəlib kamilliyə yetişməkdir. Düşünürəm, pis məqsəd deyil.

Bir az ölmüş kimiyəm. Bir az bayılmış kimi.

Bir libasam, tərsinə geyiblər. Bir az düymələri içəridə qalmış kimiyəm.

Bir az başına od ələnmiş kimi, bir az da bu oddan sivişmiş kimiyəm.

Bir az təkəm, bir az da cütləşməkdən qorxan kimiyəm.

Bir az altdayam, özüləm, təmələm, bir az da təməlsiz ucaldılmış bina kimiyəm.

Sapandam, atanım yox; ucu şiş nizəyəm, saplanmağa nər sinə axtarıram.

Bir az arxadayam, özümdən irəlidəkiləri görmək üçün. Bir az da irəlidə…, məndən öndəkilər mənə arxadan çatsın deyə.

Həm buzam, şümşad sırsıralarım kəllə yarar, həm də od....sırsıralarımın “hirsini” yatırtmaq üçün.

Bir az damlara, daşlara, başlara yağan doluyam, bir az da ovucda əriyən qar dənəciyi, nizamı pozulmuş.

Bir az gecəyəm, pəncərələrdən girirəm, bir az da günüz. Gündüzlərim gecələrini sevənlərlə paylaşmaqdan bezib artıq…

Ağappaq ağam, divar ağı yox, göz ağı – bəbəyin rəngini soldurmuşam, həm də ki, qara – bəbəkləri təzədən qaraltmaq üçün.

Bir az küləyəm, bir də uğultu. At gəzirəm. Kürən bir at..... yalmanına yatıb dağ döşünə qalxmaq üçün.

Bir az boşam, bir az dolu. Dolumu boşuma boşaldırlar, dolum boş qalır, boşum aşıb-daşır.

Mey-şərabam, beyinləri uydurmaqçun. Gədəhlərim məni bir-birinə qısqanır. Onları sındırmışam, çox tündəm.

Bir az uşaq kimiyəm. Dindirmə, ağlaram.

Bir az da süst qadınam. Yaxşı gələn avazlardan diksinirəm. Mütiliyimi xoşbəxtlik sanıram. (Əcəba! Mənmi yazdım bunu?! … Öldürün məni! )

Məğlub olmuş cəngavərəm. Hücuma taqətim yox. Mənə qalxan verin, qalxan verin, qorunum.

Süd verən anayam, körpəmi aparıblar, südümü saxlamaq olmur.

Çöllər ceyranıyam, dırnağımın altından ləl-dürr saçıram.

Bir az içəridəyəm, bir az çöldə. İldırım bölüb məni ortadan. Qalmışam yarımçıq. İndi yalvarıram, calamır sağımı soluma.

Həm təlaşdayam, həm vahimədə.

Gecə toyda, səhər yasda.

Qopan naləyəm, ucalan fəryad…qulaqlara dolmaq üçün. Sevincəm, kədərəm. Bir azsız.

Bir içim suyam, bir düzüm mirvari.

Dəli bir şəlaləyəm, dağdan atıblar məni. Yerə dəyəndə çilik-çilik oluram. Hər damlamda bir dünya görərsən.

Hər damlam ömrü 10 il uzatmaq iqtidarında.

Hər məndən üzülüşün cəhənnəm əzabı.

Hər mənə tapınışın hicrana bir əlvida nidası.

Hər busəm bir vüsal hədiyyəsi.

Hər baxışım bir şam alovu.

Qucağım pərqu döşək, isti nəfəsimi heç kəslə paylaşmam, özümçün saxlaram.

Mən həyatam, dirlik, ruham mən.

Nə göydəyəm, nə yerdə.

Məni tutmaq olmaz. Sabun köpüyü tək yox olaram. Xatirələrinə çökərəm. Həyatından gedib, səni ömrün boyu ağrılara düçar edərəm.

.....dedim axı, məni tutmaq olmaz, toxunmaq da olmaz, yoxa çıxaram…

# YAĞIŞ

Bu gün yağış yağırdı. Göylər bu gün yaş idi.

Kim göz yaşlarına tamarzıdır baxsın göylərə. Buludlar axıdır gözünün yaşını. Sonra pəncərələr açılacaq, evlərə sərin payız havası almaqdan ötrü. Ciblərdə mobil telefonlar səslənəcək, yağışa görə təxirə salınmış görüşləri bərpa etməkdən ötrü. Adamlar yağış gölməçələrində ayaqlarını şappıldada-şappıldada harasa tələsəcək – biri xoş xəbər aparmağa, biri bəd xəbər almağa, birinə işdən qovulması haqda məlumat veriləcək, o birinə aliment kəsiləcək, başqa birinə ilk dəfə "sevirəm" söyləniləcək. Eh, insanlar, talelər…

Xoşlayıram, yağış narın-narın, tənbəl-tənbəl səpələyəndə. Havanı qoxulamağı xoşlayıram, yağışın təravətini duymağı, bir də nəm torpağın iyini. Şəhərin həyasız quşları adamlardan çəkinmədən yağış nohurlarından su içir, dimdikləri ilə lələklərini təmizləyirlər. Heç nə veclərinə deyil. Kiçicik olmaları bir üstünlük verib onlara – yerə yaxınlıq, torpağın iyini daha yaxşı duyurlar.

Yağışlı havada yuxarıdan şəhərə tamaşa edəsən. İri prospektlər, güzgüyə dönmüş küçələr, hisi-tozu yuyulmuş ağaclar, ağaclar dibindəki qızılı xəzəl… Belə yağışda maşın selində olmağı xoşlayıram. Qoy tıxaclar yaransın, hava axşama doğru əyilsin. Bilməyim, qaş qaralana mənzil başına yetişəcəm ya yox. Qoy axtarsınlar məni, narahat olsunlar, zəng çalsınlar,

qaldırmayım, – ”zəng çatmadı”.. Lirik bir melodiya tapım. Səsini azaldım, yalnız mənimçün oxusun. Musiqi sədaları altında maşının tısbağa yerişi adamı əsəbiləşdirmir, əksinə. Heç istəmirsən, getdiyin yerə gedib çatasan. Düşünməyə əlinə imkan düşüb, istifadə elə. Ya düşünməməyə?.... hər şeyi unutmağa, hər şeyin üstündən xətt çəkməyə. Yağ, yağış, yağ, apar məni uzaqlara…

Körpüləri xoşlayıram. Onların altından, üstündən keçən maşın axınını…, özü də qaş qaralanda, payızın sərinində. Hamı evinə tələsir, çox tələsənlər və çox narahatlar siqnal səslərindən bəlli.

Bir də, xoşlayıram yağış dənizə yağanda. “Dolu dəryaya yağar” ifadəsini xatırlayıb bilaixtiyar gülümsəyirəm. Bir anlıq təsəvvür edirəm: yağış hər tərəfə yağır, dənizə çatanda “susub, səsini kəsir” ki, *bura dənizdir, bura onsuz da yaşdır. Dənizə baş qoşmayım, sahillərinə yağım.* Damlaların dəniz səthi ilə təmasını xoşlayıram və bu təmasdan doğan dairəcikləri. O dairəciklər hərəsi bir damla taleyidir. Damlalar şappıltı ilə suya düşür və başlayır öz taleyini yaşamağa. Düzdür, bir-birinə çox bənzəyir bu damcı talelər..

Yağış kəsəndən sonra sahildə oturub, axşam düşməsini gözləyəsən. Dənizin özünə baxmayasan, yox. Xoşlamıram, özü də toran qovuşandan sonra. O mənə böyük bir qır qazanını xatırladır, ətrafında şeytanlar uzun tiyələrlə durub qarışdırdıqları iri bir çəlləyi,… ya da ucsuz-bucaqsız bataqlığı. Yox, dənizə heç gözümün ucuyla da baxmazdım. Qan rəngli qürubları seyr

edərdim. Axşam alatoranında məndən uzaqlaşan dənizə "*sahillə məni təkbətək qoyub, getmə*" deyərdim.

Şıdırğı yağışı da xoşlayıram. Təbiətin şıltağını, dəlisovluğunu. Amma külək olmasın, sadəcə göyün navalçaları açılsın, axıtsın yerə selini-suyunu. Təbiət yaxasını cırıb ağlasın. Mən də evdən seyr edim, pəncərə arxasından. İri pəncərə qırağı olsun, orda oturum. Evdə işığı söndürüm, pişiyimi qucağıma alım, onun yumşaq tüklərini sığallaya-sığallaya burnumu soyuq, tərli şüşəyə söykəyib baxım. Yanımda şam olsun, tam qaranlıq xoşlamıram. Tam zülmətdə qaranlığın dadını bilmirəm.Hardansa işıq süzülməlidir.

Hətta əynimdə nə olmasını da təsəvvür edirəm. Açıq-qəhvəyi köhnə sviterim, dizləri sürtülmüş cins şalvarım. Sviterin qollarını çəkirəm dirsəyə qədər, darıxdırır məni. Bir qolumda saat, o birində gümüş bilərziyim. Boynumda həmayil, ondan heç vaxt ayrılmıram, yay-qış, gecə-gündüz mənimlədi. Saçımsa kürəyimdə, qıvrılır, üzümə dağılır, mənə mane olur, amma mən yığmıram onu, qoy əsəblərimi qıdıqlasın bir az. Mən ancaq fikirləşəndə saçımı yığıram. Bir də vacib rəsmi görüşə gedəndə. İndi mən heç nə eləmirəm, sadəcə yağışa baxıram.

......bu kiçicik xəyalımı gerçəkləşdirirəm. Böyük arzularımı tezlıklə həyata keçirə bilmirəm, kiçik şıltaqlıqlarıma isə göz yummuram. Pəncərə qırağında otururam. Göylər istəyimi duyurmuş kimi şivən qoparıb, dəlicəsinə ağlamağa başlayır.

Otağım qaranlıq, yanımda şam, dizlərim üstündə pişik, büzüşüb yatıb. Pəncərəmin altında şəhər nəfəs alır. Gecə

işıqları meşədə uçuşan işıldaquşları xatırladır. Qaranlıq öz hamilə qarnını gərib köhnə məhəllələrin, təzə göydələnlərin üzərinə. Yağış yuyur şəhərin günahlarını. Belə havada təkəm-tükəm insanlar da görünür küçələrdə. Çətirlə yağışdan birtəhər qorunaraq, nohurlu küçələrdə sərt ziqzaqlar cızırlar. Bəzilərinin heç çətiri də yoxdur. Çıpa-çıp su içindədirlər. Amma bu onları narahat eləmir, görünür, başlarını dik tutub, şəstlə yeriyirlər, sanki qorxmurlar yağışdan. Belələrinə, təbiətin qovğasından qorxmayanlara xüsusi ehtiramım olub həmişə. Bunlar öz kiçicik insan Mənlərini təbiətə qarşı qoyanlardır.

O qədər məmnunam ki,… ya pişiyin təsirindəndir, bilmirəm, amma məni yuxu aparır. İstəyirəm gözlərimi yumum yatım və mütləq nəsə görüm. Sakit tonlu bir röya. Fikirləşirəm, əgər yuxularımçun proqram tuta bilsəydim, bunu dəqiq eləyərdim. Görmək istədiyim yuxuları görərdim, axtardığım adamlarla görüşərdım. Sonra var gücümlə əlləşərdim ki, məni arzularıma çatdıran yuxularım çin olsun.

..... səslər eşidilir. Ayırdılar məni xəyallarımdan… Qonşularımdı. Cavan ailə. Qadının da, kişinin də səsini çox yaxşı tanıyıram. Tez-tez sözləri çəp gəlir, yola gedə bilmirlər, səssiz-səmirsiz yaşamaq maraqsız gəlir onlara. Bazar günləri oğlan tez-tez harasa çıxıb gedir, itir bir sutkalıq. İşdən sonra hər axşam evə dönmür. Gözləyirlər onu, gözləyirlər.... hətta xörəyini qızdırıb plitə üzərində saxlayırlar, süfrə açırlar onun üçün, osa gəlmir. Amma eşitdiyimə görə özləri evlənmişdilər, necə deyərlər, sevib-seçib. Yeri gəlmişkən, məhz belə, yəni

uca hisslər üzərində qurulan ailələrin bir çoxunun dağılmasının şahidi olmuşam. Səbəb: anlaşılmazlıq. Bütün sualları kəsən leytmotiv: "əclafın biriymiş, tanımamışam". Mənə isə çatmır, qətiyyən çatmır, necə olur ki, illərlə görüşdüyün, gedib-gəldiyin, birgə bayramlar yola saldığın birisini tanımayasan? Yəni belə maskalanmışdı?....

Nə isə, qayıdaq qonşuma. Elə qapının ağzındaca sözləşdilər, o getdi. Getdi, arxasınca qapını bağladılar. Amma o hələ bilmirdi ki, bu son gedişidir. Daha onunçun qapını açmayacaqlar, onu evə buraxmayacaqlar. Çünki səbir kasası dolub artıq. Bu, son hədd idi, son hədə, qışqırıq, göz yaşları və ümidlərin də sonuncusu idi, hansı ki, param-parça oldu. Gərək belə qırılanana qədər naziltməyəsən heç şeyi.... Ona yazığım gəldi bir anlıq. Belə havada heç iti də evdən qovmazdılar. Onusa qovdular…, bilsəydi, heç işdən evə qayıtmazdı.

Budur, çıxdı küçəyə, heç çətir də vermədilər ona, ya özü götürmədi.....çox qürurlu adamdı qonşum. Qürurlu və zavallı… Onu müşayiət edirəm gözlərimlə…, gözdən itənə qədər. Ürəyimdə ona səbr və təmkin diləyirəm. Onunçun indi pis-di, çox pis. Amma bilmək olmaz, bəlkə ona elə bu lazımmış? Bəlkə bu epizodla gələcək xoş günlərinə imza atmış olur? Biz insanlar başımıza gələnləri həmən zaman kəsiyində tədqiq edib, pisi pis görürük, yaxşını yaxşı. Amma üstündən vaxt aşanda, məlum olur ki, o vaxtki pis yaxşılığaymış, yaxşı bildiyimiz isə əksinə....

Yağışsa yağır.... Pişiksə yatır..... Şəhərin günahları yuyulur,

damla-damla. Bəlkə mən də çıxım dayanım küçədə, qoy yağış mənimkiləri də yusun.., günahlarımı.., ya bəlkə heç gücü çatmadı. Ayaqlarım keyidi pəncərə qırağında oturmaqdan.

Bir əsatir xatırladım. Göyün üzündə cırtdanların anası yaşayırmış. O cırtdanların ki, özləri yerin altında qərarlaşıb, bütöv bir cəmlik, tam bir sivilizasiya mövcudluğunda. Balaca, yox, cıppılı, saqqalları dizlərində, hirsli, eqoist varlıqlar. Qızıla son dərəcə həris oğru cırtdanlar. Yağan yağış onların anasının göz yaşlarıdır. Yuxarıdan oğlanlarının hərəkətlərinə baxır, bir şey edə bilmir, güc verir göz yaşlarına. Ağla ki, ağlayasan. Göz yaşları, yəni yağış damlaları hopur torpağa. Torpaq qatını keçəndən sonra mirvari dənəciklərinə çevrilir. Bu dənəcikləri onun oğlanları birər-birər gəzib yığır, bütün yeraltı məkandan, kölgələr krallıqlarından. Öz canları bahasına. Yəni risklə, filan-beşməkan. Toplayıb sayırlar. Neçə sandıq topladıq? Bu say müəyyən həddə çatanda, cırtdanlardan biri (məhz kim, bunu püşk atmaqla özləri seçir) yeraltı əsarətdən canını qurtarır. Onun karması dəyişdirilir, adam qiyafəsinə salınıb, yerin üstünə göndərilir. Göndərilir ki, insan həyatı yaşasın, insan kimi. Yəni bizlərə daha irəli getmiş varlıqlar kimi baxırlar, amma mən deməzdim… Nə isə, mənim nə düşündüyümün mətləbə heç bir dəxli yoxdur, ona görə düşüncələrimi özümə saxlayım, söhbət indi cırtdanlardan gedir. Yer səthinə göndərilmiş cırtdan burdakı insan həyatını sona vurduqdan sonra bizlər kimi ölmür, göylərə çəkilir, anasının yanına və orda, səma ierarxiyasında özünə münasib yer tutur (baxır burda necə yaşayıb, nələr qaynadıb.

Əgər göylərə layiq deyilsə, yenidən öz qardaşlarının yanına göndərilir). Ana isə ağlamağından qalmır. Elə hey ağlayır ki, o birilərini də yer səthinə qaldıra bilsin.

Belə… Yağış kəsmək bilmir. Mən durum gedim. Pişiyi yerinə qoyum, özümə şərab süzüm. Bir vacib zəng çalmalıyam.., bir problemə çözüm verməliyəm bu gecə. Əvvəlcə eyvanın qapısını açım, otağı buzladım. Üşüyüb donanda real dünyanın reallığına daha qəti inanıram. ., bütün nikbin-bədbin fikirlər məni tərk edir, hər bir şeyin faniliyini daha yaxından hiss edirəm.

Qonşudan yenə səslər gəlir. Kimsə qapını döyəcləyir, özü də inadla. Ba! Ola bilməz! Yəni proqnozumda yanılmışam mən? Qonşum qayıdıb gəldi ya…?

Bütün təqsirlər yağışdadır!

# QADIN NALƏSİ

Niyə qadınlar güclü olmalıdır?

Biz məyər bunun üçün yaranmışıq?

Biz deyilikmi dünyaya yeni həyat bəxş edən, körpələri nəfəsimizlə qızdıran, yer üzünü şəfəqimizlə nura boyayan?

Dünyanı idarə edən ağaları biz böyütmədikmi? Ərlərin, ərənlərin, Beyrəklərin, Babəklərin, Qazan xanların, comərdlərin anası deyilikmi? Koroğlular, Nəbilər döşümüzdən süd əmməyibmı? Bütün bunlar güc, qüdrət nişanəsi deyilmi?

Bəs deyilmi gördüklərimiz, etdiklərimiz? "Edə biləcəkləriniz etdiklərinizdən daha çox" deyib niyə bizi imtahana çəkirsiz? (heç bilmirəm kimə xitabən deyirəm bunu? Dünyaya ya kişilərə?)

Sən qadınsansa, güclü olmalısan!

Döz! Dözməlisən. Sənin yaraşığın gözəl çöhrən, bal dodaqların, qulac saçların yox, dözümün olmalıdır. Döz! Yoxsa "döyüləcəksən". Alçaldılıb, aldadılıb məhv ediləcəksən. Yox, yox, ağlama! Ağlamaq qadına yaraşan iş deyil. Bu, zəiflik əlamətidir. İntihar etməyi heç ağlına belə gətirmə! Qadınlar səltənətinin Kraliçalarının adına ləkə vurmuş olarsan. (bu yerdə tarixə düşmüş qadınları sadalamaq olar). Döz! Dözümünlə qadınlığını sübut elə!

Ah! Bunca zülm olar? İstəmirəm! Yoruldum artıq! Güclü olduğumu sübuta yetirməkdən yoruldum. Usandım.

Hər bir işi boynuma götürüb, canım çıxsa da axıra qədər boyunduruq altında inləməkdən yoruldum.

Yorulduğumu, sıxıldığımı gizlətməkdən yoruldum.

Göz yaşlarımı içəri axıtmaqdan yoruldum.

Daxilim ağlarkən, üzümə xoşbəxtlik maskası taxmaqdan yoruldum.

Özüm bataqlıqda boğulduğum halda, başqasını elə həmən bataqlıqdan çəkib çıxartmaq məcburiyyətindən yoruldum.

Öz göz yaşlarım selə dönərkən, başqasının göz yaşını nəfəsimlə qurutmaqdan yoruldum.

Lal sükutdan, çarəsizlikdən, böyüyərkən kiçilməkdən, diriykən hər gün ölümlə qol-boyun olmaqdan yoruldum.

HARAY! Özüm üçün yaşamaq istəyirəm! Qadınlığımı,...... əsarətin qanlı pərdəsini yırtmış, quduz barmaqlarını sındırmış, günü əsrə bərabər tənha qadınlığımı yaşamaq istəyirəm. Qadın kimi yaşamaq istəyirəm. Zəif, zərif, kövrək, xatirələri ilə başbabaş, heç kəslə boş, mənasız mübahisələrə girməyən, hər cür roldan, zordan, qəddarlıq və kobudluqdan uzaq məsum və daim himayəyə ehtiyacı olan bir qadın kimi......

Yəni belə mümkünsüz bir arzudur?

# DƏNİZ, MƏNİ QƏBUL EDƏRSƏNMİ, DƏNİZ?

Dəniz, məni qəbul edərsənmi?

Dəniz, dəniz, dəniz.... Niyə biri intihar etmək istəyəndə, gəlib səni tapır? Sən ağzıbütövsən, sirr verən deyilsən, ona görə? Ya izləri daha yaxşı silirsən, ona görə? Bəlkə batanın günahlarını yuduğuna görə?.... Axı sui-qəsd ən böyük günahdır, deyirlər.

Niyə birinin qəlbində qasırğalar coşanda, fırtınalar qopanda, hirsi beyninə vuranda, gözü bu düzü-dünyada heç nəyi görməyəndə, canını götürüb sənin sahillərinə gəlir, mavi sularına dalır, hey dalır…, qəlbinin dərdini sənlə bölüşür, başının üstündəki qara buludları sənlə dağıdır? Niyə? Sən "su hərisinin" susuzluğunu yatırda bilirsən, ona görə? Alışan ruhlara su çiləyirsən, ona görə? Ya dünyada misli görünməyən dərd dağarcığı, qəm dəryasısan, ona görə? Qəm dəryası… Təsəvvür edirəm, tərkində nələr gizlənib…

Niyə biri sulara qərq olmuş Atlantidanı səndə axtarır, ümman?

Niyə biri səndə keçmiş sivilizasiyaların bizə miras qoyduğu piramidaları axtarır? Misir ehramları bəs etmirmi bizə? Bəyəm onların sirrlərini öyrənib qurtarmışıq?

Niyə biri sənin dibində qızıl, ğümüş, ləl-cəvahirat gəzir? Batmış gəmilərin sirrini heç kəsə verməyəcəkmisən? Çoxmu quldurların olub? Çox idbar və qısqancsan…

Paslanmış dəmir parçası, …yosun basmış kayutlar,… toza dönmüş insan sümükləri,…əsrlərin tapdağı altında qalmış içi xəzinə dolu sandıqlar,…balıqlara yem olmuş dəniz xəritələri,… balıqqulağılardan sanki sap-sap mirvari geymiş gəmi göyərtəsi.... Bunlar hamısı bir vaxt dəniz səthində imiş...... indi tərkindədir.... İndi bunlar sənin oyuncaqlarındır. Nə pis oyuncaqlarin var....

Söylə, sularında çoxmu “qara deşiklərin” var, kosmik fəza kimi? Çoxmu insanın həyatına son qoydun? Varlığının üstündən xətt çəkdin, taleyini qara yazdın? Dəniz, .....dəniz… sevmirəm səni.

*Əndamını həvəslə qucaqlarkən dalğalar,*
*Qəlbimlə qasırğalar, fırtınalar coşaydı,*
*qısqanclıqlar doğaydı,*
*Məni hirsim boğaydı.*
*Cumub alaydım səni dalğaların əlindən,*
*yapışaydım belindən.*

*(M.Müşfiq)*

“Məni həvəslə qucaqlarkən dalğalar”, çox-çox ümid edirəm ki, məni onların əlindən ala biləcək bir KİMSƏ tapılmayacaq.

Dəniz, məni qəbul et, səninəm.

# GEDİRƏM

Səsimi sizlərçün qoyub gedirəm. Fəzadan asacam onu. Heç PLAY basmaq da gərəkməz. Sadəcə məni düşünməyiniz yetər ki, səslənim sizlər üçün.

Sözlərimi qulaqlardan şəbəkə sırğa kimi asıb gedirəm. Baxın, qırılmasın, hayıfdı.

Haqlı olduğum dəqiqələrin aciz hönkürtüsünü, taleyinsə mənə etdiyi haqsız iradları bir siniyə yığıb, bəzi kimlərin yox vicdanının məhkəməsinə buraxıb gedirəm.

Xatirələrimi yüklədiyim son və gecikmiş qatarın qulaqbatıran uğultusu ilə sizləri perronda tək buraxıb gedirəm.

Sınıxmışam davalardan, şavalardan. Piara ehtiyacım yox, qanmırlar bunu. Üzümə ələk tutub gedirəm.

Hər şeydən küsüb, inciyib gedirəm.

Kölgəm də bəyənmir məni. Əvvəllər mənimlə gizlənqaç oynayardı, indi daşqalaq edir. Neynim? Dabanlarını dabanlarıma tikim? Qorxuram, atar məni. Bu boyda itkiyə dözə bilmərəm sonra…

El içinə necə çıxaram? Kölgəsiz qadın.....Məni cadugər pəri sanıb odda yandırarlar..... Ona görə dördəlli yapışmışam kölgəmin ətəklərindən ki, məni atıb getməsin. Ona nə var? Onun sifəti yoxdur ki.....qızarsam, mən qızaracağam.

Silflərlə salamandrlar, su pəriləri ilə cırtdanlar məni gözləyirlər. Burda qiymətim yox ki...... Onların şahzadəsi

olmağa gedirəm. Burda ölüb, orda dirilməyə gedirəm.

Ədalətin həyatlara yamandığı yerə gedirəm.

Nurun zəfər çaldığı, ruhların ucaldıgı, insanların qocalmadığı və yalanların yox olduğu yerlərə gedirəm.

Bir az uzaq dur məndən, Günəşimin qarşısını tutma. Sən ki, hələ yalanlardan və murdarlıqlardan bezməmisən. Qal onda burda. Məni isə burax, gedim.

Məni yalqız buraxan gecələrdən töycü almağa gedirəm.

Suallarımı bu dünyanın tərkini bilən qocalarla paylaşıb gedirəm. Cavabları göylərdə axtaracam.

Heç ayağımın altına, önümdəki yolun ağına baxmadan gedirəm. Bilirəm ki, nə yıxılanam, nə büdrəyən.

Sizləri mənsiz buraxıb gedirəm.

Gedirəm, əfsus, xatirələrimə virus düşüb, silinib hamısı. Hayıf o cındır, yamaqlı xatirələrdən…

Gedirəm. Cavab verməyə gedirəm.

Bir dar ağacı qurulub mənimçün. Gərək o ağacın gözünü yolda qoymayım.......

Nə vaxt qayıdacam?

Ah, nə acı zarafat.... gözləyin… gözləyənçün qayıdacam.

Günəşlə ay göy qübbəsində eyni vaxtda görünəndə –
Qara daşlar günəşdən ilham alıb göyərəndə –
Xeyirlə Şər barışıq elan edəndə –
İlk baharla son bahar bir araya gələndə –

Bax onda gözlə məni.

Pəncərə önündə durub, gecənin lal sükutuna tamaşa edərsən, ayın şüasını badənə doldurub başına çəkərsən, cəsarət toplarsan, iradəni yumruğuna düyərsən, səni sürpriz gözləyir.....sonra fırlanıb arxana baxarsan: sənin odanın ən sevimli yerində – kresloda, soba qarşısında tapacaqsan məni.

# İSTƏYİRƏM...
# ÇOX ŞEY İSTƏYİRƏM

İstəyirəm külək olum, bacalardan dolum, sobaları söndürüm.

İstəyirəm uğultu olum, nəvəsinə qorxulu nağıllar danışan nənənin sözlərinə qüvvət.

Sonra hənirtiyə çevrilim, gözü qapıda, qulağı səsdə, canı əsirdə qalmış tənha qadının qulluğunda durum. Gözünü qapıdan çəkim, canını əsirdən qurtarım, qulaqlarını elə oxşayım ki, bir də səs gəzməsin.

Gecə klublarında oxuyanların əlindən mikrofonu qapım, romansları öz bildiyim tərzdə oxuyum.

İstəyirəm alatoran olum, nə çox tünd, nə çox açıq. O alatoranda sevgisini paylaşanlara dil verim. Əllərindən tutum, göl sahilinə endirim…, bayquşları susdurum ki, gözəlliyə pəl qatmasınlar.

İstəyirəm bir əsgər məktubu olum. Gözü yolda qalan analara hədiyyə.

İstəyirəm sağalmaz bir xəstəlik olum, pislərin, əclafların, alçaqların canına çöküm, sümüklərinəcən didim-dağıdım onları.

Bulud olmaq istəyirəm. Dolum-boşalım. Ağlamağı unudanlara ağlamağı yenidən öyrədim.

Bir sini istəyirəm, onu doldurmaq üçün. Meyvə-filan, lələgülə, üstündə qatı açılmamış bir dəstə pul (iri kupyurlarla). Sonra da o sinini kasıbın bacasından içəri sallayım və qaçım

gedim......arxamca oxunan duaları eşitməmək üçün.

Bir səhəng istəyirəm. İçini bulağın buz suyu ilə doldurub, səhrada azmış səyyarın qabağına çıxartmaq üçün. Alnından yaş dodaqlarımla öpüb, yoluna davam eləməyi məcbur edim onu.

İstəyirəm bir yoxluğa çevrilim.......

Bir heç olum........əriyim gedim. Qoy axtarsınlar məni. Tapmasınlar. Mən də səmirsiz səsimlə gülüm, eşitməsinlər məni.

Tənha meşə cığırındakı o silinməz ləpir özüm olum. Ləpirə düşüb arasınlar məni. Ləpir onları dünyanın qurtaracağına gətirib çıxarsın. Dünya qurtarsın, mən tapılmayım.

Burulğan olmaq istəyirəm. Kimisə udum, sakitləşim, dənizin dibinə çəkilim, pusquda durum, gözlərə görünməyim.

Xörəklərin dadı olum. Sirrim zəfəranda-zəncəfildə yox, əllərin duzunda olsun. Məni nə tutmaq mümkün olsun, nə də hədiyyə vermək.

Kosmik toz olum. Şəhərin üstünə yağım. Kütlə halında problemlərə, tək-tək "heç nə"yə səbəb olum.

Yağışın damlalarına çevrilim, pəncərələri taqqıldadım. Pəncərəni açanda üzlərə çırpılım.

Fırtına olum. Əllə tutula bilməyim. Gözlə görünüm.

Sevda olum. Toxunmaq mümkünsüz, amma ürəkləri ağrıdım.

Səbəbsiz ağrı olum, cisimsiz can. Cana cisim qoşum, ağrıya səbəb.

Sinkretik bir nəsə.....Özüm deyib, özüm çalıb, özüm oynayardım. Ehtiyacım olan yeganə şey – təzənə.

Dar macalda sivişib sudan quru çıxmaq istəyirəm. İstəyirəm itim ilim-ilim, tapmasınlar məni. Axtarsınlar, arasınlar.....

Küləklərdən soruşsunlar..........külək fışıltıyla cavab versin.

Gecələrdən soruşsunlar..........gecə çiyinlərini çəksin.

Cücələrdən soruşsunlar...........cücələr qara gecələrdə gizlənsin.

Çıraqlardan sorsunlar............çıraqlar işığını keçirsin.

Axan bulağa üz tutsunlar.............bulaq qurusun.

Təpədən sorsunlar...............təpə yerlə düzlənsin.

Xəritələrdə axtarsınlar məni...............xəritələr çaşıb qalsın.

Əlqərəz.....Tapmayıb, məni ölmüş bilsinlər. Baxım görüm, ağlayanım çoxmu olacaq?

Sizlər məni axtarmaqda olun, mənsə…sizi dərdinizlə baş-başa buraxım. Və xoşbəxt olum. Gülüm, gülüm, gülüşümdən çələng hörüm, başıma taxım. Qanrılıb keçmişimə həqiranə bir nəzər salım, yuxarıdan aşağı. Aramızdakı göbək ciyəsini dişlərimlə kəsim, ayırım o hidranı özümdən, bir də qələt eləyib arxamca gəlməsin.

# Конец ознакомительного фрагмента.

Текст предоставлен ООО «ЛитРес».

Прочитайте эту книгу целиком, купив полную легальную версию на ЛитРес.

Безопасно оплатить книгу можно банковской картой Visa, MasterCard, Maestro, со счета мобильного телефона, с платежного терминала, в салоне МТС или Связной, через PayPal, WebMoney, Яндекс.Деньги, QIWI Кошелек, бонусными картами или другим удобным Вам способом.